**Azərbaycan yüksək inkişafa malik ölkədir**

Məlum olduğu kimi, bu yaxınlarda Argentinanın geniş tərkibli ticarət missiyası Azərbaycana səfəri çərçivəsində respublikamızın iqtisadi vəziyyəti, biznes mühiti, sahibkarlıq sektorunda həyata keçirilən layihələrlə tanış olub. Argentina iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlərin təmsilçilərindən ibarət nümayəndə heyəti Azərbaycan şirkətləri ilə işgüzar görüşlər keçirib, yerli sahibkarlarla əlaqələrin yaradılması və Azərbaycan bazarına daxil olmaq niyyətlərini ifadə edib. Bakıda keçirilən Azərbaycan-Argentina biznes forumunda isə ikitərəfli iqtisadi əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi qeyd olunub.

Biznes missiyasının səfərinə geniş yer verən Argentinanın KİV-ləri və internet portalları Azərbaycanın iqtisadi inkişafına dair silsilə yazılar dərc etməyə başlayıb. «La Politica Online» analitik informasiya portalı, «Telam» qəzeti, digər KİV-lərdə Azərbaycanın son illərdəki iqtisadi inkişafı, yeni yaradılan iş yerləri, ölkəmizə yatırılan xarici investisiyalar barədə geniş təhlillərə yer verilir. Qeyd olunur ki, Azərbaycan iqtisadi baxımdan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Ötən 8 ildə ölkədə ÜDM 3 dəfə artmışdır. Xarici borc ÜDM-in 6%-ni təşkil edir. Adambaşına düşən milli gəlirə görə, Azərbaycan regionun ən zəngin ölkəsidir. Son 8 ildə ölkəmizdə həyata keçirilən sistemli və genişmiqyaslı demokratik siyasi və iqtisadi islahatlar, sosial proqramlar tərəqqinin uzunömürlülüyünə baza yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən iqtisadi siyasət Azərbaycan iqtisadiyyatının davamlı uğurlarını təmin edib. Hazırda ölkə iqtisadiyyatının diversifikasiyasının sürətlənməsi, regionlardakı mövcud istehsal və emal bazasının gücünün artırılması, qeyri-neft bölmələrinə aid iri müəssisələrin fəaliyyətinin güclənməsi Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişaf etdiyini şərtləndirmiş olur.

Demokratik cəmiyyətin, liberal bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin yeni müstəvidə və modern mərhələdə gücləndirilməsi, neft gəlirlərinin məqsədyönlü idarə olunması və birbaşa insan amilinə, yəni intellektual kapitala yönəldilməsi, qeyri-neft sahələrinin innovativ iqtisadiyyatın əsas xəttinə çevrilməsi, kiberinformasiya cəmiyyətinin formalaşdırılması, ən yeni kreativ texnologiyaların meydanının genişləndirilməsi Azərbaycan dövlətinin siyasi strateji trendi kimi çıxış edir.

Argentina KİV-lərinin qeyd etdiyinə görə, Azərbaycan Qafqazın ən əhəmiyyətli ölkəsidir. Azərbaycan çoxşaxəli, strateji və balanslaşdırılmış xarici siyasət həyata keçirir. Keyfiyyətcə yeni xarakter alan beynəlxalq iqtisadi münasibətlər sistemində güclü iqtisadi potensiala, əsaslandırılmış idarəetmə strategiyasına və inkişafın milli modelinə malik Azərbaycanın xarici siyasət kursu genişkomponentli, genişdiapazonlu, balanslaşdırılmış təməllərə söykənən müstəvidə və tarazlı kursa uyğun müəyyən olunub. Bu kurs müəyyənləşdirilərkən, ilk növbədə, bütün tərəflərlə bərabər və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan strateji kursu qoruyub saxlamağa üstünlük verilib. Bu, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş davamlı siyasi strategiyanın təməl prinsiplərindən biridir. Ötən illlər ərzində Azərbaycanın regionda balanslaşdırılmış xarici siyasət kursu bir qədər də möhkəmlənərək həm post-sovet ölkələri, həm də Avropa, Asiya, Amerika, eləcə də Afrika və Yaxın Şərq dövlətləri ilə səmimi münasibətlərin qurulmasında mühüm rol oynayıb. ABŞ, Türkiyə, Rusiya, Ukrayna, İran, Gürcüstan, Fransa, Almaniya, İtaliya, Rumıniya və digər ölkələrlə əlaqələrdə dinamizmin keyfiyyət baxımından zənginləşməsi bu tendensiyanın hakim olmasını göstərir.

Respublikamızın dünya iqtisadiyyatına inteqrasiyanı dərinləşdirməsi və xarici tərəfdaş ölkələrlə iqtisadi-ticari münasibətləri genişləndirməsi son illər beynəlxalq maliyyə institutları və ən nüfuzlu agentliklər tərəfindən hazırlanan renkinq cədvəllərində və hesabatlarda başlıca mövzu kimi diqqəti cəlb edir. Bu günlərdə dərc olunan Asiya İnkişaf Bankının (AİB) «Asiya İnkişaf Perspektivi-2012» (Asian Development Outlook- 2012) adlı yeni hesabatında Azərbaycanda həyata keçirilən düşünülmüş makroiqtisadi siyasət yüksək qiymətləndirilir. Hesabatda qeyd olunur ki, Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi və sosial islahatlar makroiqtisadi vəziyyətin sabit qalması ilə yanaşı, artım meyillərinin əldə olunmasına imkan verəcək. Respublikamız inkişaf dinamikasına görə regionda əsas aparıcı dövlətlərdən olacaq. Asiya İnkişaf Bankı 2012-ci ildə Azərbaycanda

ÜDM-in 4,1% artacağını proqnozlaşdırır. AİB-in proqnozlarına görə, 2012-ci ilin yekunları üzrə Azərbaycanın xarici ticarətində müsbət saldo 22,35 milyard, 2013-cü ildə 21,94 milyard dollar təşkil edəcək. Hökumət maliyyə sabitliyinin əsas göstəricilərindən biri olan istehlak qiymətləri indeksinin nəzarətdə saxlanmasını təmin etmək iqtidarındadır.
AİB-in hesabatında qeyd olunur ki, maliyyə böhranını aşmaqda olan Mərkəzi Asiya ölkələrində inflyasiya hələ də hissolunacaq səviyyədə - 7,5%-dir. Yeni resessiyalar fonunda bu rəqəm 2011-ci ilin sonuna 8,2%, 2012-ci ilin sonuna isə 6,6% ola bilər. AİB-in mövqeyinə görə, Azərbaycan hökuməti inflyasiyanın qarşısının alınması ilə bağlı dövlət orqanlarının koordinasiya olunmuş birgə fəaliyyəti sayəsində qiymət indeksini nəzarətdə saxlamağa qadirdir. Respublikamızda inflyasiyanın 2012-ci ildə 7-7,5%-ə, 2013-cü ildə isə təxminən 8,5% olacağı proqnozlaşdırılır. Təşkilatın ekspertlərinin fikrincə, güclü daxili tələbat, istehlak bazarının həcminin böyüməsi, əməkhaqqı artımı, eləcə də iqtisadiyyatın daxili kredit hesabına genişləndirilməsi inflyasiyanın artmasında əsas elementlər kimi çıxış edəcək. Amma bütün bunlara baxmayaraq, ölkədə iqtisadi inkişafın yüksəlməsi və əhalinin real pul gəlirlərinin inflyasiya göstəricisindən 2-2,5 dəfə çox olması iqtisadiyyatı mənfi təsirlərdən qorumuş olacaq, vətəndaşların sosial vəziyyətinə təsir göstərməyəcək.
Region ölkələrinin xarici və daxili borcları ilə bağlı vəziyyəti şərh edən təşkilatın ekspertləri ölkələrin əksəriyyətində daxili borcun daha çox özəl sektora aid olduğu qənaətindədirlər. Buna səbəb maliyyə böhranı nəticələrinin həmin ölkənin tikinti və bank sektorunu vurması oub. Azərbaycanın daxili borc probleminin olmadığını diqqətə çatdıran AİB mütəxəssisləri ölkəmizin xarici borc üzrə də çətinliyinin olmadığını bildirirlər. Ümumiyyətlə, Azərbaycan region ölkələri içərisində xarici borc məsələsində çox əlverişli və yaxşı mövqeyə malikdir. Ölkəmizin xarici borcu 3,7 milyard dollar təşkil edir ki, bu da ÜDM-in 8%-dən aşağı rəqəmdir. Ölkəmizin xarici borcu strateji valyuta ehtiyatlarından 9 dəfəyə yaxın azdır ki, bu da maliyyə sabitliyi üçün çox mühüm rol oynayan faktor sayılır.

Elbrus CƏFƏRLİ